# TƏHSİL PROSESİ İŞTİRAKÇILARININ MÖVQELƏRİNDƏN PEDAQOJİ DƏSTƏYİN AZƏRBAYCAN MƏKTƏB TƏCRÜBƏSİNDƏKİ OPTİMAL SEÇİM YOLLARI (EKSPERİMENTİN TƏHLİLİ)

Lalə BEYDULLAYEVA*

**Xülasə:** Şagirdə dəstək olmaq pedaqoji prinsiplərə əsaslanmaqla sərbəst azad tərbiyə çərçivəsində özünədəyər və fərdiliyin qorunub saxlanılmasıdır. Təhsilin humanistləşdirilməsi innovativ prosseslərin müasir mərhələdə ayrılmaz komponenentinə çevrilmişdir. Təhsildə şəxsiyyətyönümlü yanaşma pedaqoji reallığın öz xüsusi texnologiyalarının tətbiqi ilə həyata keçirilməlidir. Müxtəlif təkliflər və yeniliklərin təhsilin inkişaf tendensiyalarına aid etməklə keyfiyyət baxımdan yeni konsepsiyalara və texnologiyalara yol açmış olur. Bunun sırasında da pedaqoji dəstək konsepsiyasının yeni təhsilin paradiqmasına əsaslandığını göstərir. Şəxsiyyətyönümlü təhsil və təlimi son məqsədlərinin determinasiyasını təsdiqləməklə şağirdin şəxsi inkişafını uşaqlıq və gənclik dövrlərinin azad, yaradıcı yaşaması və bu dövrün özünə dəyər, sosial önəmli mərhələsində özünü təsdiqi vacib hesab edilən məsələlərdən biridir.

***Açar sözlər:*** *pedaqoji dəstək, humanist pedaqogika, eksperment təhlil, şagirdə humanist yanaşma.*

**Optimal Choice Ways of Pedagogical Support in Azerbaijan School Experience from the Positions of Educational Process Participants (Analysis of the Experiment)**

**Abstract:** Supporting the student is the preservation of self-worth and individuality within the framework of free education based on pedagogical principles. Humanization of education has become an integral component of innovative processes at the modern stage. A person-oriented approach in education should be implemented by applying its own special technologies of pedagogical reality. By relating various proposals and innovations to the development trends of education, it paves the way for qualitatively new concepts and technologies. It also shows that the concept of pedagogical support is based on the paradigm of new education. By confirming the determination of the final goals of personality-oriented education and training, the personal development of the student, the free, creative life of the childhood and youth periods, and self-affirmation at the self-worth and socially important stage of this period is one of the important issues.

***Key Words:*** *pedagogical support, humanistic pedagogy, experimental analysis, humanistic approach to the student.*

## Giriş

Pedaqoji dəstək məqsədyönlü şəkildə şagird üçün müəllim tərəfindən yaradılmış xüsusi şərait və köməkdir. Bu şərait və kömək bir neçə probemin həllinə yönləndirilmiş fəaliyyət növü ola bilər ki, uşağın özünüdərki və müstəqil şəkildə qərarın verilməsində rol oynamalıdır. Bununla yanaşı, yaxın və uzaq perspektivin müəyyənləşməsini təmin etməli, həyatın real şəraitinə adapdasiyanı, ətrafla pozitiv münasibətlərin qurulmasını, özünü reallaşdırılması və müxtəlif sferalarda özünütəsdiqə nail olmağa sövq etməlidir.

Pedaqoji dastək şagird şəxsiyyətinin inkişafına kömək edan, onun formalaşmasına yönələn kompleks pedaqoji təsirlər sistemindən ibaratdir. Bu proses özünün şəxsiyyətyönlülüyü, şagirdlərə humanist münasibətliliyi ve nəticəyönlülüyü ilə səciyyələnir və şagird şəxsiyyətinə hörmət olunmasını, onun şəxsiyyət kimi qabul edilməsini, şagirdə inam, etimad va diqqət göstərilməsini özündə birləşdirir. (Talıbova, 2023 : 4 )

Dövlətin yürütdüyü Təhsil siyasətinin hədəfləri və istiqamətlərində şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması və buna müvafiq fəaliyyət prioritetdədir. Təhsil Strategiyası sənədindən bu məqamlardan birini göstərmək olar: "Təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəlməsini təmin edən yeni sistemin yaradılması: 2.1.1. təhsilverənlər üçün təhsilin bütün pillələrində təhsilalanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodologiyasının və müvafiq resursların hazırlanmasının təmin edilməsi" kimi təqdim eilir. (Təhsil Strategiyası, 20.10.2013)

Buna qədər təqdim etdiyimiz fikirlər və ideyalar təhsil alana ünvanlaşdırılmışdırsa təhsil prosesinin digər iştirakçısı – müəllimin də fəaliyyəti olmadan bu işin həyata keçirilməsi imkansız olardı. Çünki müasir təhsil siyasəti təhsil siyasətimizin əsas məqamlarından biri

* Azerbaijan State Pedagogical University, lala.beydullayeva.93@mail.ru

müəllimin fəaliyyətində cəmləşir: müəllim idarəçidir, novatordur, istiqamət verəndir və pedaqoji dəstəyin müəllim fenomeni olmadan həyata keçirilməsi imkansızdır.

Təlim prosesində müəllim diaqnostik işi apardığı zaman uşağın təlim nailiyyətləri, fəaliyyətinin növlərindən asılı olaraq gördüyü işin nəticələrin dəyərləndirir. Onun təlim prosesində üzləşdiyi çətinliklərin dərəcəsinə görə müəyyənləşdirir və optimal seçimlərin edilməsində ona didaktik əsaslarla pedaqoji dəstək verir.

Müəllim pedaqoji dəsdək işinin təşkili prosesində ilk növbədə uşağın yaxşı xüsusiyyətlərini nəzərə almalıdır, çətinliklərin dərəcələrini müəyyən etmək imkanına malik olmalıdır. Müasir pedaqoji elmimizin tanınmış tədqiqatçısı M.İlyasov 2018-ci ildə ap olunmuş monoqrafiyasında göstərir ki, "Sınanmış metod olan pedaqoji dəstək təhsil və tərbiyə prosesində xüsusən indiki dövrdə olduqca mühüm təsir gücünə malikdir". (İlyasov, 2018:98) Apardığımız elmi və praktik araşdırmalar əsasında müəllimin bu işdə təşkilati qaydada xüsusi plan üzrə işinin təşkilini mütləq hesab etməli, çünki təlim fəaliyyəti məqsəd yönlü qurulmuş bir prosesdir.

Biz çalışmışıq ki, problemin elmi nəzəri tərəflərini tədqiq etməklə, praktik baxımdan problemin məktəb təcrübəsində mövcud vəziyyətini araşdıraq və nəzəri aspektdə işlənilmiş elmi fərziyyələrin təcrübədə özünü nə dərəcədə doğrultmasını bilək.

Psixo – pedaqoji ədəbiyyatlarda buna dair bəzi göstərişlərin ümümiləşdirilməsinə çalışmışıq.

1. Kollektivin möhkəmliyinin təmin edilməsi məqsədi ilə sinifdə "təcrid" olunan şagirdlərin sayının azaldılması.
2. Əgər sinifdə qruplaşmalar varsa onların ləğvinə nail olmaq, düşmənçiliyi aradan qaldırmaq.
3. Sinifdə olan liderlərin fəaliyyətini rəğbətləndirmək və nümunə kimi təqdim etmək.
4. Uşaqlar arasında mehribançılq, qarşılıqlı anlayış və xeyirxahlıq hissini aşılamaq.

Müşahidələrin və aparılmış araşdırmaların nəticəsi olaraq pedaqoji dəstək işinin təşkilinin təxmini 10 qayda tərtib etmişik (təlimdə geri qalan şagirdlərə aiddir).

1. Müəllim hər şagirdin qabiliyyətlərinə inanmalıdır və bu inamı şagirdin özünə aşılamalıdır. Şagirdin hər uğuruna müəllim ürəkdən sevinməlidir.
2. Təlimdə geri qalan şagirdlər üçün ən çətin məqamlardan biri təlim materialını dərk etmə müddətidir. Burada müəllimə böyük səbr lazımdır.
3. Sinifdə zəif uşaqlar səviyyəsində iş qurulur və az bir müddətdə 3 səviyyədə təlim nailiyyətlərini müşahidə edirik. Burada daha qabiliyyətli müəllim öndə olur, orta səviyyə qabiliyyətlilərə çatmaq həvəsini nümayiş etdirir, daha zəif olanlara isə dəstək lazım olur.
4. Əsas materialın dəfələrlə təkrarı – zəif oxuyan uşaqlarla olan iş priyomlarından biridir. Onu da dərk etmək lazımdır ki, ayrıca təşkil olunmuş mövzu, dərs olmur. Təlim prosesinin hər mərhələsi öz arasında sıx bağlıdır-bir dərs ondan öncə gələn mövzunun davamıdır.
5. Təlim materialının həcminin artırılmasına ehtiyac yoxdur. Əsas vacib olanı izah olunur, təkrarlanır və möhkəmlənir.
6. Təlimdə geriliyən şagirdlərlə qurulan işi primitiv görmək olmaz iş yalnız bilik verməkdə deyil. Bu şagird təbəqəsi ilə aparılan iş prosesində daim yaddaş inkişaf edir, məntiq, təfəkkür, emosiyalar, hisslər, təlimə maraq, təlimi bacarıqların və vərdişlərin formalaşması baş verir. Uşağın inkişaf səviyyəsi dəyişdikcə işin metodikası mahiyyətini dəyişməli olur.
7. Ünsiyyət – istənilən metodikanın tərkibidir. Təlimdə geriləyənşagirdlə ünsiyyət qura bilməyən müəllimin heç bir metodikası işlək ola bilməz

8. Sinifi idarə etməyi öyrənmək lazımdır. Hər hansı təlimi materialın izahında sinif diqqətlə müəllimi izləməlidir. Şagirdlərin təlim prosesində fəaliyyəti rəngarəng olmalıdır.

9. Güclü uşaqları zəiflərlə işə cəlb olunmasına müəllim nail olmalıdır. Təlim prosesi sinifin frontal təşkili ilə fərdi yanaşmanı birgə həyata keçirilməsinə xidmət etməkdir.

10. Təlimdə zəif olan uşaqlarda abstrakt təfəkkür zəif inkişaf edir. Bu uşaqlarda təlim maraqların oyanmasında emosiyalar, hisslər, təlimə maraqlarına istinad etməklə iş qurulmalıdır.

Təlim fəaliyyətinin təşkilini zəif oxuyan şagirdlərlə bilik, bacarıq və vərdişlərin formalaşdırılmasından başlamaq düz deyil, öncədən adaptasiya üçün lazımı şəraitin yaradılması vacibdir. Aşağıdakı priyomlardan istifadə etməklə bunlara nail olmaq imkanı vardır.

1. Uyğun şəraitin yaradılması, cox da ciddi olmayan rejimin təşkili.
2. Pedaqoji işin təlim-korreksiyaedici istiqamətini müəyyən etmək.
3. Şagirdlərin imkanları çərçivəsində təlim fəaliyyətini uğura kökləyən, metodlar və priyomlardan istifadənin təmin edilməsi.
4. Tələblərdə differensiallıq və təlimdə fərdi yanaşma, təlim proqramlarının sadələləşdirməyə doğru işin təşkili, ikinci dərəcəli təlim materiallarının təxirə salınması və həcmin azalmasına doğru iş, şagirdlərin bilik və bacarıqlarında yaranmış boşluqların aradan qaldırılmasına zamanın ayrılmasına nail olmaq.
5. Təlimdə geriləyən şagirdlərin psixi inkişafının, çətinliklərinin səbəblərini, korreksiyaedici işin xüsusiyyətlərinin qeydiyyatının aparılması.
6. Uşaqların təlimi maraqlarının artırılması məqsədilə sinifdənxaric iş, dərnək işi sisteminin yaradılması.

Tədqiq etdiyimiz elmi - pedaqoji ədəbiyyatlarda tez-tez rast gəldiyimiz problemin həlli üçün nəzərdə tutulan pedaqoji dəstəyin həyata keçirilməsində təlimin ilk mərhələsində birliklərin yaradılması – qruplar şəklində böyüklərdən və uşaqlardan ibarət olaraq. Işgüzar əks-əlaqə, birgə fəaliyyət, iştirakşıların fikirləri əsasında işin qurulmasının effektivliyi daha yüksək olur. Bu uşaqda uğurun yaranmasına, sosial cəhətdən formalaşmasına və şəxsi inkişaf trayektoruyasının yaranmasına səbəb olur.

Ədəbi oxu sahəsində çətinlik çəkən şagirdlər üçün yalnız təlimi materialın deyil, hım də əlavə bədii ədəbiyyatın təhlili, yaddaşın yaxşılışdırılması üçün şeir əzbərləmək məsləhət görülür.

Azərbaycan qrammatikası ilə bağlı çətinlikləri olan şagirdlərə yalnız təriflərin əzbərlənməsi kifayət deyildir, öyrənilmiş qaydaların praktik cəhətdən tətbiqi də çox önəmlidir. Uşaqlar müstəqil şəkildə dərsliklərdən mətinləri köçürməyi bacarmalıdırlar, imla şəklində olan yazılar da önəmlidir, uşaqların lüğəti ehtiyatlarının zənginləşməsi də çox vacibdir.

Riyaziyyat təlimində çətinlik çəkən şagirdlər əlavə məşğələlərə cəlb edilməlidirlər. Tapşırıqlar öz məzmununa görə uşağın məntiqi və abstrakt təfəkkürünün inkişafına xidmət etməlidirlər, bununla yanaşı əsas psixi funksiyaların: diqqət, yaddaş, təfəkkürün də əhəmiyyəti unudulmamalıdır.

Məlumdur ki, təlimdə geriliyin aradan qaldırılmasında daha çox diqqət yetiriləcək məqamlar var:

1. Sinif rəhbəri (metodistin) işi.
2. Məktəbdaxili nəzarət.
3. Təlimdə geriləyən uşaqlar üçün göstərişlər.
4. Valideynlər tərəfindən nəzarətin təşkili.

Düşünürük ki, pedaqoji dəstəyin və profilaktik işin vasitələrini 2 qrupa bölmək olar:

1. Dərsdənkənar vaxtlarda əlavə məşğələlərin təşkili;

2. Valideynlərin məktəbə dəvət olunması təziq vasitəsi kimi.

Təlimdə geri qalan uşaqlarla pedaqoji dəstək zamanı görüləcək iş proses kimi addım-addım təhlil olunmalıdır, xüsusi reqlament əsasında fəaliyyət qurulmalıdır. Biliklərin əldə olunması kortəbii həyata keçirilməməlidir, gedən proses tam aydın şəkildə uşaq tərəfindən dərk olunmalıdır.

Təlimdə çətinlik hiss edən uşaqlarla xüsusi fəaliyyətin təşkilinə ehtiyac duyulur ki, onların təlim maraqlarının formalaşmasına xidmət etsin. Bu işlərin hamısı uşaqların əmək fəaliyyəti ilə sıx əlaqəli şəkildə həyata keçməlidir. Bu uşaqlara tez-tez tapşırıqlar verilməlidir. Verilmiş hər bir tapşırıq onlara olan etimadın nümayişinə xidmət etməlidir.

Differensal tapşırıqların verilməsi şagirdlərdə təlim prosesinə daha ciddi yanaşmaya təhrik edir. Veriləcək tapşırıqların həcminin azaldılması o zaman məqsədədə müvafiq hesab edilir ki, uşaq tez yorula. Differensial tapşırıqların verilməsi zamanı məzmun baxımından deyil, yanaşma tərzi və icrasında istifadə olunacaq metodikaların təqdimatı diqqət mərkəzində olmalıdır. Bu zaman məsələlərin həlli yolunu tapmış uşaq müstəqil şəkildə işi icra edərək, uğur qazanmaq və onun  ləzətini duymağı bacarmalıdır.

Uşağın təlim nailiyyətlərinə ailənin təsiri də  çox önəmlidir. Pedaqoji dəstək göstərməyə hazırlaşan müəllim şagirdin ailəsini yaxından tanımalıdır və ailənin şagirdin təlim nailiyyətlərinə nə dərəcədə təsir imkanına malik olduğu  haqqında məlumatı olmalıdır. Ailə ilə maarifləndirici işin aparılması effektiv olar, valideynlər uşağın əqli əməyinin təşkilində, fəaliyyətin mədəni aspektlərini mütləq şəkildə nəzərə almalıdırlar.

İbtidai təhsil mərhələsinin stabil qaydada yekunlaşmasını bu cür göstərmək olar:

1. Təlim prosesində sinif yoldaşları bir-birinə təlim prosesində və tapşırıqların yerinə yetirilməsində dəstək olmağı bacarırlar.
2. Uşaqlar çox böyük həvəslə birgə vaxtlarını keçirirlər.
3. Birgə təlim fəaliyyəti nəticəsində hər bir uşaq xeyli nailiyyət əldə etmiş olur.
4. Şagird müstəqil şəkildə qarşısına məqsəd qoya bilir, ona doğru optimal seçimlər etməkdə artıq çətinlik çəkmir, öz təlimi nailiyyətlərinə görə özünə dəyər verməyi bacarır.
5. Sistematik və müstəqil şəkildə uşaqlar ev tapşırıqlarını yerinə yetirirlər, çox nadir hallarda kömək üçün valideynlərinə müraciət edirlər.

Bir daha qeyd etmək lazımdır ki, ibtidai siniflərdə təlim-tərbiyə prosesində pedaqoji priyomlar və texnikaların reallaşdırılması nəticəsində təlim – tərbiyə prosesində hər uşaq üçün komfort yaratmaq imkanına nail oluruq.

2.1.Paraqrafında təqdim etdiklərimizin nəzəri aspektlərin aprobasiyasını Gəncə şəhər V. Veysəlov adına 30 nömrəli tam orta məktəbin III sinifdə keçirdik I mərhələdə təlimdə geriləyən, proqram üzrə mənimsəməsi aşağı olan uşaqlarda verilmiş müstəqil icrasını yerinə yetirməyi bacarmayanlar, yaxud tələb olunan səviyyədən aşağı – 42 %.

- Qiymətləndirməyə qarşı laqeyid olub, tez-tez fikirləri dərsdə yayınan uşaqlar – 8 %.
- Dərsin gedişatına mane olanlar, idarə olunmayanlar – 12 %.
- Verilmiş suallara bir çox hallarda "bilmirəm" cavabı verənlər - 26%
- Lövhə qarşısında özünü itirən və inamsız cavablar verənlər – 12 % təşkil etmişdir.

Uşaqda idrakı maraq səviyyəsi aşağıdır, iradəsi və xarakteri formalaşmamışdır. Müəllimin fikrincə o, tənbəldir. Müəllim düşünür ki, bu uşaqlar bacardıqlarından daha aşağı səviyyədə biliklərini təqdim edirlər.

- Hər şəyə laqeyid və dəsdə darıxanlar,  iş prosesinə nadir hallarda qoşulurlar - 35 %.
- Tənbəllik edirlər, çalışmırlar, lakin potensial var - 43 %.
- Yorğun görünüş, dərsdə yuxulama halları, təlimin sonunda qıcıqlanma halları- 9 %.
- Verilmiş tapşırıqları ləng və həvəssiz icra edirlər - 13 %.

3.Diqqəti yayınan uşaq. Bu qrupa böyük təlimi aktivlik nümayiş etdirib, lakin nəticə verə bilməyən uşaqlar aiddir. Tələsir, düşünmədən cavab verir, çalışır ki, tapşırığı yüksək səviyyədə icra etsin, lakin unutqandır - 57 %.

Dəftərlərində qeydləri səliqəsiz aparırlar - 18 %.

Diqqətsizdirlər, saatlarla dərslərinin arxasında otururlar, lakin toparlamaqda çətinlik çəkir - 25 %.

4. Uşaqda sərbəst fəaliyyət formalaşmayıb (idarə olunmayan uşaq).

Bu qrupa aid uşaqlar məktəbdə mövcud olan ümumi qaydalara tabe ola bilmirlər. Müəllim və valideynlərin narazılığı təlimlə bağlı deyil, davranış və fəaliyyətin təşkili ilə bağlı olur.

Dərslərin keçirməsinə mane olurlar, dəcəllik edirlər, iradlara məhəl qoymurlar - 69 %.

Hiperaktivlik - 5 %.

5.Xroniki geriləmə tininə aid uşaqlar. Bu tip uşaqlar səhv etməkdən qorxurlar, passivdirlər, qərarsızdırlar, onlara tutulan iradlardan çox qorxurlar. Qiymətləri aşağı olur və buna görə təlimə maraq aşağı düşür.

Dərsi öyrənib, lakin qərarsız olduğu üçün yaxşı cavab verə bilmir-45 %.

Lövhə qarşısında özünü itirir, yazılı tapşırıqları nisbədən yaxşı yerinə yetirə bilir – 37 %.

Yoxlama işlərinin səviyyəsi adi günlərdə gördü işin səviyyəsindən aşağı olur – 12 %.

Uğursuz cavabdan sonra, caşqın olur yenidən icra olunan işə dönə bilmir-6 %.

6.Fəaliyyətdən qaçan uşaq – fantaziyaları güclü inkişaf etmişdir. Təlim prosesindəki uğursuzluqdan sonra xəyallara dalmağa üstünlük verir. Müəllimin diqqətini çəkməyə çalışırlar, yaşına aid olmayan suallar verirlər, böyük, çoxbilmiş görsənməyə çalışırlar.

Təlimdə qeyri-stabil olurlar- 52 %.

Dərs zamanı xəyallara dalırlar - 11 %.

Diqqətsizdir - 6 %.

Tənbəldir (oxuya bilirlər, lakin istəmərlər) - 5 %.

Sinifdə təlim prosesində iştirak etmirlər, şəkil çəkirlər, başqa bir fəaliyyətlə məşğul olurlar - 19 %.

Yalan danışmağa meyillidir - 7 %.

7.Oyun tipinə görə inkişafın getməsi.

Təlimin ilk günlərindən məsuliyyətsizlik nümayiş etdirir, kapriz göstərir, təklif olunmuş işin icrasından imtina edir.

Lakin intellektual səviyyə lazımı dərəcədədir, həmyaşıdlarından fərqli deyil.

İdarə olunmur, özünə qarşı daim diqqət tələb edir, məktəbdə qoyulmuş tələblərə uyğunlaşmır - 12 %.

Öz səhvlərini görə bilmir, müəllimin iradından sonra da eyni səhvləri təkrarlayır - 32 %.

Qiymətlərə qarşı laqeyiddir- 8 %.

Bir çox fənnlər üzrə geriləmələr müşahidə edilir – 48 %.

8. Neqativ - nümayiş tipinə görə uşağın inkişafı.

Bu uşaqların əsas xüsiyyətləri diqqət mərkəzində olmaqdır. Əgər bu tip uşaqda diqqəti çəkmək üçün xususi qabiliyyət və istedad yoxdur, onda qaydaları pozmaqla diqqəti özünə çəkməyə nail olurlar. Uşağın davranışı klassik mövzu hesab edilən – "təlxək" davranışını əks etdirir.

Idarə olunmamaq, heç bir yanaşmanı (pis, yaxşı) başa düşmür - 12%.

Şüurlu şəkildə davranış qaydalarını pozur – 23%.

Yaxşı oxumağı bacarırlar, lakin hərdən pis davranış nümayiş etdirə bilərlər – 45 %.

Beləliklə, təlim prosesində mövcud çətinlikləri ümumiləşdirək

Oxu üzrə: zəif oxu texnikası, mətnlərin təhlilində çətinliklər oxumağa marağın azalması, informasiyanın sosial şəbəkələrdən əldə olunnmasına meylin artması.

Azərbaycan dili üzrə: orfoqrafik səhvlərin üstünlüyü, nəzəri anlayışların çətin qavranması məhdud lüğət ehtiyatı.

Riyaziyyat üzrə: onluqlara keçidlə əlaqəli toplama və çıxma əməliyyatında olan çətinliklər, həndəsi anlayışlarla və ölçülərlə bağlı yaranan çətinliklər.

Bu gün müəllimin yaxşı konsepsiyası, müasir avadanlığı, həyatla əlaqə yaratmağa istiqamətləndirilmiş proqramları, dərsliklər və müxtəlif formatda təlim prosesini təkmilləşdirən vasitələri vardır. Lakin bu gün böyüməkdə olan gənc nəslin təlim – tərbiyəsinin təşkil işinin bir sıra çətinlikləri də mövcuddur.

Uşaq məktəbə öz problemləri və daxili ziddiyyətləri ilə gəlir. Problemin aktuallığı ondan ibarətdir ki, onun emosional rifahı təmin edilsin.

Kiçik yaşlı məktəbli xüsusi situasiyada riskdədir: orqanizmanın yetərincə fiziki inkişafı təmin olmadığı halda məktəb həyatının çətin şəraitinə qısa müddətdə adaptasiya keçməsi vacibdir.

Şagirdin psixo-fiziki imkanlarının və məktəb təliminə psixoloji hazırlığının aşağı olması, təlim yükünün bu imkanlar çərçivəsinə sığmaması uşağın daim stress vəziyyətində olmasından xəbər verir. Bu situasıyada təxirəsallnmaz pedaqoji dəstəyə ehtiyac duyulur.

İlk baxışdan pedaqoji dəstək dedikdə, asan bir prosesin həyata keçirilməsi kimi görünə bilər. Yüksək peşə kompetensiyalarına malik pedaqoq, böyüməkdə olan gəncə krizis dövrünü adlatmağa köməklik edər və öz "mən"ini təsdiqləməyə şərait yaradar.

Müəllimin üzərinə düşən əsas vəzifə yalnız çətinliyin aradan qaldırılması deyil, çətinliyin yaranma səbəbi, həlli yollarını uşağa dərk etdirməkdir. Bu işdə müvəffəq olmaq üçün aşağıdakı şərtlərin gözlənilməsi mütləqdir:

- Şagirdin müəllimlə (valideynlə) əməkdaşlığa razılığı;
- Problemin müəyyən edilməsində vacib hesab edilən məqamların uşaq tərəfdən dərki, prioritetlərin düzgün ardıcıllığı;
- Məxfiliyin gözlələnilməsi;
- Xeyirxahlıq və dəyərlərin gözlənilməsi;
- Uşağın hüquqlarının və maraqlarının gözlənilməsi.

Müşahidələr apardığımız siniflərdə sinif müəllimin köməkliyi ilə ilin əvvəlində uşaqların təlimə hazırılığını diaqnostikasının aparılmasını qərar verdik və yüksək səviyyə 3 uşaq – 11%, orta səviyyə -13 % uşaq – 53 %, aşağı səviyyə 9 uşaq – 36 % oldu. Diaqnostik dəyərləmədən aldıqlarımız bizə imkan verdi ki, təlimdə fərdi yanaşma, differensial işin aparılması trayektoriyasını konkretləşdirək. Müəllimə məsləhət gördü ki, aşağı səviyyə üçün korreksiyaedici inkişafetdirici təlim planı hazırlansın. Burada işçi dəftəri köməyimizə gəldi ("mən yazmağı və oxumağı öyrənirəm"). Uşaqlar çox böyük həvəslə bu işçi dəftərlərdə təqdim olunan tapşırıqları icra edirlər.

Bu tapşırıqlar yaradıcı xarakter daşıdığından həlli yolları bir neçə variantda olur. Uşaqların öz variantları və seçimləri təqdim edilə bilər. Burada şagirdlər müstəqil şəkildə təlimi materiallarla iş qurur, bilik əldə edirlər. Uşaqlarda bu işin icrası obyektiv özünüqiymət meyarının əldə olunmasının təminatını verir.

Bu işdə daha çox önəm verdiyimiz "Yaradıcılıq dərsləri" oldu. Bu dərs prosesində uşaqlar özünü çox sərbəst hiss edir, sərbəst fikir söyləmək imkanına malik olurlar, özlərini komfortlu hiss edirlər. Bu formatdan olan işlər işguzar ünsiyyəti, qarşılıqlı hörməti, əks - əlaqənin qurulmasına xidmət edir, uşaqlarda özgüvəni artırır.

Müəllimin təcrübəsinə istinad etməklə ikinci sinif şagirdlərində şəxsi inkişafın xüsusiyyətlərini izləməyə müvəffəq olduq. Bu üsulla hər şagird haqqında yetərincə lazımı məlumatı almaq olur. Nəticələrin analizi hər bir uşağın inkişafı üçün qurulacaq işin mahiyyətini üzə çıxarır

"Şagirdin idrakı aktivliyi və məktəbə motivasiyanın səviyyəsi" anketini təqdim edirik (bu anketləşmə II və III siniflər arasında , iki tədris ilini əhatə etməklə, müqayisənin aparılmasına imkan yaradır):

| Adlar | II sinif (A) | | | | III (A) sinif | | |
|---|---|---|---|---|---|---|---|
| | M/h razı | Dostluq Münasib | Həyacan | Özünü qiymət | M/h razı | Dostluq Münasib | Həyacan |
| Aytac | 1 | 0 | 3 | 1 | 4 | 5 | 3 |
| Namik | 2 | 1 | 3 | 3 | 2 | 5 | 3 |
| B.Nuray | 2 | 3 | 4 | 5 | 3 | 5 | 4 |
| Nilay | 3 | 4 | 0 | 2 | 4 | 5 | 2 |
| Turqut | 3 | 2 | 3 | 3 | 3 | 5 | 3 |
| Səbinə | 1 | 1 | 3 | 0 | 2 | 1 | 3 |
| Sevil | 3 | 3 | 3 | 3 | 4 | 5 | 3 |
| Murad | 2 | 3 | 1 | 4 | 3 | 3 | 4 |
| Narın | 3 | 4 | 1 | 3 | 5 | 5 | 3 |
| Ə.Nuray | 2 | 5 | 4 | 3 | 4 | 5 | 3 |
| Dəniz | 3 | 3 | 3 | 3 | 4 | 5 | 3 |
| Ruqəyyə | 2 | 3 | 4 | 3 | 2 | 4 | 3 |
| Solmaz | 0 | 4 | 4 | 4 | 3 | 4 | 3 |
| Əli | 2 | 3 | 3 | 3 | 2 | 3 | 3 |
| Ibrahim | 3 | 2 | 1 | 2 | 5 | 4 | 3 |
| Ülkər | 3 | 5 | 4 | 4 | 4 | 4 | 4 |
| Aylin | 3 | 3 | 3 | 2 | 3 | 5 | 3 |
| Yusif | 2 | 3 | 3 | 5 | 3 | 4 | 3 |
| İ.Nuray | 3 | 5 | 4 | 4 | 5 | 5 | 4 |
| Nəzrin | 2 | 2 | 3 | 3 | 3 | 4 | 4 |
| Əlirza | 3 | 3 | 3 | 3 | 5 | 4 | 3 |
| Paşa | 3 | 3 | 3 | 3 | 4 | 5 | 3 |
| Ömər | 3 | 0 | 4 | 3 | 5 | 5 | 3 |
| Fatimə | 3 | 4 | 3 | 3 | 3 | 3 | 3 |
| | 11 | 6 | 4 | 5 | 4 | 1 | 1 |

Cədvəlin birinci şkalası üzrə məktəb həyatından razılıq – uşaqların məktəbdə razı qaldığı məqamlar, təlim prosesində iştirakları və s. nəzərdə tutulur, burada həyacan doğuran məqam 3 balda aşağı olmasıdır. II sinif üzrə məktəb həyatında komfort hiss etməyə uşaqların sayı 11 nəfər oldu. Bu bir sinif üçün böyük rəqəmdir. Bəzi faktorların təsirinə məruz qalan uşaqlarda bu üzə çıxdı: adi yaşadıqları şəraiti dəyişmək, qiymət meyarının olması, xarici dillər əlavə edildi və uşaq başa düşür ki, məktəb təlim qaçılmazdır.

II şkala. Dostluq münasibətləri – sinif yoldaşlarının biri – birinə münasibətləri təlimi nailiyyətləri ilə ölçülməyə başlandı. Burada artıq müəllimin köməyinə ehtiyac olur.

III şkala. Məktəb həyacanı – təlimlə sıx bağlıdır, bura ailədə baş verənlərdə aid olmağa başlayır. Təlimdə müvəffəq olan, məsuliyyətlə hər işə yanaşan, bununla yanaşı məktəb həyacanı yaşayanlar var. Çox böyük səy nəticəsində uğur əldə edə bilirlər. Bu uşaqlara mütləq şəkildə oedaqoji dəstək lazımdır, çünki məktəb həyacanı onlarda özünədəyəri aşağı salır. Öz biliklərinin təlim prosesində nümayiş etdirməyin qarşısını alır.

IV şkala – uşaqda öz gücünə inam səviyyəsinin göstəricisidir. Şagirdin məktəbdə təlim prosesində nailiyyətlərinə müsbət təsir göstərir. Uşaqda özünüdəyəri artırır, bununla da təlim nailiyyətləri yaxşılaşır, şəxsi inkişaf təmin edilir.

V şkala. Durum, rifah - özünü təlim prosesinə narahat hiss edən şagirdə yalnız tibbi kömək lazım deyil, təlim prosesi elə tələblərə müvafiq qurulmalıdır ki, uşaq özünü konfortlu hiss etsin və heç bir təziqlərə məruz qalmasın.

Təlim prosesində yaranmış müsbət emosional atmosfer, hər bir şagirdin uğur əldə etməsinə xidmət edir.

Anketin təhlilini aparmaqla aşağıdakıları təqdim edirik:

Məktəb motivasiyası və idrak aktivliyin:

yüksək səviyyəsi – 33 % (əvvəl 11 %)

ortasəviyyəsi – 54 % (əvvəl 3 %)

aşağı səviyyəsi – 13 % (əvvəl 36 %)

yuxarıda qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olur ki, pedaqoji dəstək kiçik yaşlı məktəblinin özünədəyərinin yüksəldilməsi üçün önəmli alətdir.

Pedaqoji dəstək fərdi və qrup şəklində ola bilər (müəllim və şagirdin əks əlaqəsi şəkilində), profilaktik və təxirəsalınmaz xarakterdə özü göstərə bilər.

Dəstəyin qrup forması – bu proses tədris ilinin əvvəlində, yaxud tətillərdən sonrakı zamana təsadüf edə bilər. Uşağı birdən birə təlim fəaliyyətinə daxul olması emosional və psixoloji cəhətdən çətin olur. Bu  məqamda fəaliyyətin intensivliyi oyun vasitəsi ilə artırılır.

Oxşar problemləri olan qruplarla işin təşkili. Müşahidələr və diaqnostikanın aparılması nəticəsində bu qrupları müəyyən etmək olar.

Şagirdlərin kollektiv yaradıcı işlərə cəlb edilməsi, burada uşaq öz maraqlarını nümayış etdirir, qabiliyyətlərini göstərməyə müvəffəq olurlar.

Fərdi pedaqoji dəstək formaları: ibtidai siniflərdə daha çox yayılmış problem ekspansiv tipə aid uşaqlarla bağlıdır.

Həddindən artıq inadkar, küsəyən, dalaşqan, ağlağan uşaqlarla hansı məqamda, hansı situasiyada necə davranmağı bilmək çox çətindir. Bu uşaqlar adi məktəbdə baş verən situasiyanı hədənin mənbəyi kimi qəbul edə bilərlər.

Bu cür uşaqları lövhə qarşısında sorğu-sual edilməsini sinifdə adı sual cavabla əvəz etmək daha münasib olar, düşünməyə zaman vermək, cavabı dərhal almağa tələsməmək lazımdır. Cüzi nailiyyətinə görə bu uşağı mütləq rəğbətləndilmək lazımdır. Bu cür münasibət uşaq mütləq ailədə görməlidir.

Sinifdə digər qrup şagirdlər də var ki, müəllimin gözünə görünməyi, müəllimin diqqətini çəkməyi sevirlər sinifin ümumi fonunda seçilməyə çalışırlar, çox impulsiv cavablar verirlər, icazəsiz fikir bildirirlər. Bu uşaqları tez – tez danlamaq olmaz. Əgər müəllim belə uşaqları cəzalandırmaq istəyirsə, onları bir müddət diqqətsiz qoymaq yetərlidir. Uşaq özünü yaxşı apardıqda, müəllim yüngül formada onu rəğbətləndirə bilər.

Bu cür pedaqoji texnikalardan istifadə etməklə, problemləri aydın görürsən, mübariz, mövqeyindən "sənə dəstək" mövqeyinə keçid ala bilirsən.

Burada görkəmli pedaqoq Ş.A.Amonoşvilinin sözlərini xatırlamaq tam yerinə düşər: "Əgər uşaq üçün təlim çətin bir proses kimi görünür və biz bu işdə ona köməklik göstərmək istəyirik – uşağa imkan vermək lazımdır ki, nəyə qadir olduğunu özü hiss etsin və bir daha yerdə qalan problemlərin həllinə özündə inam yaratsın, çünki onda yaradandan kiçik bir qığılcım var". (Ш.Амонашвили, 25.03. 2024)

**Nəticə**

Beləliklə,uşağın müəllim tərəfindən dəstək alması bir çox humanist pedaqoji sistemlərlə araşdırılmışdır. Bu ideya öz kökündə uşağa qayğı, kömək və onun haqlarının müdafiəsi məsələləri ilə sıx əlaqədədir. Bir sıra pedaqoji məsələlərin həlli prosesində, müxtəlif konsepsiyalarda, uşağa olan xüsusi diqqətdə, onun şəxsiyyət olaraq unikallığının dərki zamanında, inkişafına təlim prosesində nail olunması məqamlarında kəsişən nöqtələri çoxdur.

## ƏDƏBİYYAT

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 20.10.2013 https://president.az/az/articles/view/9779

İlyasov, M. İ. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: "Elm və təhsil", 2018, 208 s.

Talıbova, D. (2023). Pedaqoji dəstək şagird şəxsiyyətinin formalaşdirilmasi amili kimi. 580401 — Ümumi pedaqogika, pedaqogikamn va təhsilin tarixi Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyamn AVTOREFERATI. Naxçıvan, 26 s.

Амонашвили, Ш. Об Инклюзивном Образовании, 25 марта 2024 https://dz